**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ƏRƏB BAHARI İLLƏRİNDƏ AVROPA DÖVLƏTLƏRİNİN (ALMANİYA, FRANSA, İNGİLTƏRƏ, İTALİYA) YAXIN ŞƏRQ SİYASƏTİNDƏ İSLAM AMİLİ

İxtisas: 5502.01 – Ümumi tarix

Elm sahəsi: Tarix

İddiaçı: **Fəridə Məhəmmədəli qızı Allahverdiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Türk xalqları tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor
**Əsməd İmamməmməd qızı Muxtarova**

Rəsmi opponentlər: tarix elmləri doktoru, professor
**Sevinc İsrafil qızı Əliyeva**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Elmira Cavanşir qızı İsmayılova**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Tariyel Namiq oğlu Abbasov**

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix üzrə elmlər doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: tarix üzrə elmlər doktoru, dosent
**Aidə Rəhim qızı Bağırova**

ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"25" 04 2024

# I.DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Aktuallığı ilə fərqlənən tədqiqat işində Avropanın böyük dövlətləri Almaniya, Fransa, İngiltərə və İtaliyanın Yaxın Şərqə yönəlik siyasətində İslam amilinin öyrənilməsi əsas götürülmüşdür. Avropanın aparıcı dövlətləri sayılan bu ölkələr, həm ayrı-ayrılıqda, həm də Avropa İttifaqının tərkib hissəsi olaraq (mövzunun əhatə etdiyi dövrdə İngiltərə də daxil idi), müasir dünya siyasətinə yön verəcək potensiala sahib güc mərkəzləridir. XX əsrin 90-cı illərində Soyuq müharibə dövrünün başa çatması dünya ölkələrində müxtəlif siyasi, iqtisadi sistemlərin və onların nümayəndələrindən ibarət təşkilatların yaranmasına səbəb oldu. Təhlükəsizlik anlayışının daxili təhdidlərlə yanaşı, xarici təhdidləri də əhatə edəcək şəkildə genişləndirilməsi, xarici siyasətin müəyyən edilməsi prosesinə təsir edən aktorlar sırasına İslamın "terrorçu din" adı ilə əlavə edilməsi, bu ölkələrin, xüsusilə Yaxın Şərqə düşmən mövqedən yönəlik xarici siyasətinin başa düşülməsinə səbəb olmuşdur. Bu hal, Soyuq müharibə dövrü ilə müqayisədə 2001-ci il 11 sentyabr və Ərəb baharı hadisələrindən sonra daha da mürəkkəbləşir. Avropa ölkələrinin, xüsusən də Yaxın Şərq regionuna münasibətdə, xarici siyasəti, təhlükəsizlik fəaliyyətləri daha çox din kontekstində öyrənilməyə başlanır.

Region olaraq da Yaxın Şərqlə bağlı araşdırmalar hər zaman aktuallığını qoruyub saxlamaqdadır. Yaxın Şərq coğrafiyası orta əsrlərdən etibarən, Mərkəzi Asiya, Uzaq Şərq və Avropada yaşayan xalqlar arasında körpü rolunu oynamışdır. Son əsrlər ərzində Yaxın Şərq qərb və şərq arasında etnik, milli, dini və strateji mübarizənin əsas məkanlarından biri olmuşdur.

Mövzunun xronoloji çərçivəsini əhatə edən Ərəb baharı hadisələri isə, indiyə qədər öhdəsindən gəlinməsi mümkün olmayan problemlər yaratmışdır. Müəyyən ölkələrdəki çevrilişlər radikal terror təşkilatlarının liderliyi ələ keçirməsinə və təzəlikcə sakitləşməyə başlayan Yaxın Şərq regionunun yenidən qaynar qazana çevrilməsinə[1] səbəb oldu. Ərəb baharı hadisələri ərəb ölkələrindən Avropaya köç

---

[1] Allahverdiyeva, F.M. The impact of Arab spring to political Islam // Hileya: Scientific Bulletin. – Kyiv: - 2020, 159 (11-12), – p.22.

edən müsəlmanların sayının artmasına səbəb oldu. Hadisələrin davamında daha çox istifadə olunan "Avropa İslamı" anlayışı, qərb cəmiyyətləri və müsəlmanların harmoniya içində olduğu bir həyat tərzi yaratmaq üçün, İslamı qərb mədəniyyətinə uyğun dəyişdirməyi məqsəd qoymuşdur.

Mövzunun aktuallığını şərtləndirən digər səbəb, Avropanın güc mərkəzi sayıla biləcək ölkələrinin uzun illərdir gündəmdən düşməyən müzakirə mövzusuna çevrilmiş, müsəlmanların Avropa mədəniyyətinə uyğunlaşa bilib-bilməməsi məsələsidir. Avropada Əndəlüsün fəthindən bəri geniş şəkildə yayılan, xristianlıqdan sonra, ən çox qəbul edilən ikinci din olaraq İslam, hələ də Avropa cəmiyyətlərində yad fenomen olaraq təqdim edilir.

Mühacirlərin Avropada daimi məskunlaşmasına qarşı müqavimət artdıqca, İslamın gətirdiyi mədəni fərqliliklər, müasir formada ortaya çıxan irqçilik daha qabarıq formada özünü göstərdi. Başqa sözlə desək, İslamafobiyanın yaranmasına səbəb oldu. ABŞ-da Nyu-York, Avropada London və Madrid şəhərlərində baş verən terror hadisələrinin[2] İslam və müsəlmanların adına çıxılması nəticəsində, Avropada yaşayan dinc müsəlman əhaliyə qarşı irqçilik və ayrı-seçkilik adi hal almışdır. Xüsusən, 11 sentyabr hadisələrindən sonra Qərb dünyasında İslamafobiya sivilizasiyalararası problemə çevrildi. Bu baxımdan, amerikalı professor S.Hantinqtonun İslam dünyasını xristian və qərb dünyasının yeni düşməni elan etməsi [3], NATO-nun keçmiş baş katibi V.Kleysin "İslam əxlaqı Avropa üçün ən böyük təhlükədir" bəyanatı[4] təsadüfi olmamışdır.

Tədqiqat mövzusunun aktuallığını əsaslandıran amillərdən ən əsası son 10 ildən artıq zaman ərzində Yaxın Şərq və İslam ölkələrində

---

[2] Akdemir, E. 11 Eylül 2001, 11 Mart 2004 ve 7 Temmuz 2005 Terörist Saldırılarının Ardindan İslam'ın Avrupa'da algılanışı // Ankara Avrupa Çalışmaları Dergisi, - Ankara: - 2009, 8(1), - s.2.

[3] Huntington, S.P. Medeniyetler Çatışması ve Dünya Düzeninin Yeniden Kurulması / - İstanbul: Okuyan Us Yayıncılık, - 2019, - s.448.

[4] Dağ, A. İslamofobia: Hegemonya'yı Derinleştirme ve bir Hegemonya Projesi Olarak Euro-İslam // 1.Uluslararasi Sosyal Bilimler ve Müslümanlar Kongresi: "Hegemonya-Karşi Hegemonya" – Konya: EKOPİ, - 5-7 may, - 2016, - s. s.48-49.

cərəyan edən proseslərin beynəlxalq münasibətlərin episentrində durması, regionda demokratiya yaratmaq, müasirləşmək cəhdlərinin və din probleminin pik həddə çatması, beynəlxalq siyasətin və regionun bütün diqqətinin buraya yönəlməsinə səbəb olmuşdur. 1996-cı ildə İngiltərədə qurulnuş "Britaniya Müsəlmanları və İslamofobiya Komissiyası" 1997-ci ildə nəşr olunan "İslamofobiya: hamımız üçün çağırış" adlı hesabatında İslamın fərqli və "başqa" olduğunu, onun digər mədəniyyətlərlə heç bir ortaqlığının olmadığını vurğulayaraq, günümüzdə davam etməkdə olan İslam və din düşmənçiliyinin təhlükəli ölçülərə çatmasına səbəb olmuşdur. Komissiyanın hesabatının qısa təsvirində deyilir ki, bu düşmənçilik İslamı, müsəlmanları, Yaxın Şərq ölkələrini hədəf almaqdadır[5].

Bu mənada, Ərəb baharının başladığı ilk dönəmdə və sonrakı illərdə Yaxın Şərqin aparıcı dövlətlərinin xarici siyasətinin əsas mərhələləri, istiqamətləri, dövlət-cəmiyyət münasibətlərinin qanuni əsaslarla yenidən qurulması, yenidən formalaşan siyasi və sosial baxış formalarına münasibət, regionda baş verən xalq hərəkatlarından təsirlənən Avropanın aparıcı dövlətləri başda olmaqla, ABŞ-ın da gündəmində olmuşdur. Avropa birliyinin və Amerikanın baş verən proseslər nəticəsində ortaya çıxan ekstremist dini terror fəaliyyətlərinə və genişlənən miqrasiya axınına reaksiyasının kompleks şəkildə araşdırılmasına həsr olunmuş dissertasiya işi nəinki Yaxın Şərq və Avropanın xarici siyasətini, habelə bütövlükdə İslam dini və onun Ərəb baharı çərçivəsində beynəlxalq problemə çevrilməsinə səbəb olan amilləri izləmək imkanı yaradır. Avropa İttifaqı ölkələrinin xarici siyasətdə birgə hərəkət etmək üçün hazırladığı "Ümumi xarici siyasət" və İttifaqa üzv olmayan ölkələrlə, yaxşı mənada siyasi münasibətləri inkişaf etdirmək üçün yaradılmış "Avropa qonşuluq siyasəti"[6] bu xalq

---

[5] Canatan, K. İslamofobi ve Anti-İslamizm - Kavramsal ve Tarihsel Yaklaşım, Batı Dünyasında İslamofobi ve Anti-İslamizm, ed. Canatan, K., Hıdır, Ö., / - Ankara: Eskiyeni Yayınları, -2007, - s. 23.

[6] Qeyd: Avropa Qonşuluq siyasəti çərçivəsində Azərbaycan, Gürcüstan, Ukrayna, Ermənistan, İsrail, İordaniya, Misir, Tunis, Mərakeş və Fələstinin də daxil olduğu 16 ölkə ilə əlaqələr qurulub. Suriya, Liviya və Belarus Qonşuluq siyasətinin əksər

hərəkatlarına lazımi reaksiyanı verməkdə gecikdi. Xüsusilə, “Avropa qonşuluq siyasəti” çərçivəsində hazırlanmış fəaliyyət planları və iqtisadi yardım kimi layihələr təsirsiz qalmışdır. Ərəb baharı dönəmində və sonrakı illərdə Avropanın Yaxın Şərqlə dəyişmiş formatda əlaqələrinin qurması dövrlərində, Avropanın xarici siyasətinin başlıca istiqamətlərinin, xarici siyasət kursunu formalaşdıran başlıca amillərin təhlili həm elmi, həm də tətbiqi maraq kəsb edir. Dissertasiya işinin fərqliliyini səciyyələndirən xüsusiyyətlərdən biri də, burada, sadalanan problemlərin beynəlxalq münasibətlər kontekstində, qlobal və regional tendensiyalar fonunda tədqiq olunmasıdır.

Dissertasiya işinin tədqiqi zamanı, mövzu ilə bağlı Azərbaycan, türk, rus, ingilis, fransız və ərəb dillərində çox sayda ilk mənbə, ümumiləşdirilmiş təqdiqat əsəri, monoqrafiya, elmi və analitik məqalələr öyrənilmiş, təhlil edilmişdir.

Tədqiqatın mənbə bazası kimi, Ərəb baharı öncəsində, illərində və sonrasında, Avropanın aparıcı dövlətlərinin daxili və xarici siyasətində İslama institusional yanaşmasını təhlil etmək üçün Avropa ölkələrinin və Aİ-nın Ərəb ölkələri ilə əlaqələrinə dair sənədlər, bəyannamələr, dövlət başçılarının İslam və regionla bağlı rəsmi çıxışları[7], bəyanatlar, dövlətlərin rəsmi nümayəndə heyətlərinin səfərləri və s. öz əksini tapmışdır. Dissertasiya işi yazılarkən Aİ, BMT, KƏDƏŞ kimi beynəlxalq və regional strukturların[8], ABŞ konqresinin rəsmi sənədləri[9], Almaniya, Fransa, İngiltərə və İtaliyanın xarici işlər nazirliklərinin

---

strukturlarından xaric edilmişdir. Ünal, M.C. “Arap Baharı” sonrası Avrupa Komşuluk Politikasının Geleceği // Ankara Avrupa Çalışmaları Dergisi, - Ankara: - 2017, 16(2), - s. 158.

[7] Chrisafis, A. Sarkozy admits France made mistakes over Tunisia: [Electronic resource] / The Guardian, January 10, 2011. URL: https://www.theguardian.com/world/2011/jan/24/nicolas-sarkozy-tunisia-protests

[8] Fischer, J. German Foreign Policy Comes of Age: [Electronic resource] / The New Times, - December 8, 2014. URL: https://www.newtimes.co.rw/article/113995/Opinions/german-foreign-policy-comes-of-age

[9] The Muslim Brotherhood’s Global Threat: [Electronic resource] / House of Representatives, Subcommittee on National Security, Committee on Oversight and Government Reform. – July 11, 2018. URL:

rəsmi məlumatları[10], Ərəb dövlətlərinin xarici işlər nazirliklərinin rəsmi məlumatları[11], Ərəb ölkələri başçılarının sammitlərinin[12], iqtisadi sazişlərin mətnlərindən[13] istifadə edilmişdir.

Araşdırılan mövzu, Azərbaycan tarixşünaslığında geniş və hərtərəfli tədqiq edilməmişdir. Mövcud olan araşdırmalar hazırki tədqiqat mövzusunun ayrı-ayrı aspektlərinin tədqiqinə həsr edilmiş çox az sayda monoqrafiya, əsasən elmi məqalə, eyni zamanda tədris-metodik vəsait səviyyəli araşdırmalardır. Məsələn, ərəb ölkələri haqqında bir

---

https://docs.house.gov/meetings/GO/GO06/20180711/108532/HHRG-115-GO06-Transcript-20180711.pdf

[10]Federal Government of Germany. White Paper 2016: On German Security Policy and the Future of the Bundeswehr / - Berlin: Federal Ministry of Defence, - 2016, - 144 p; Michou, H. The UK in the Middle East: commercial diplomacy to what end? // FRIDE, Policy Brief, - United Kingdom: - 2012, № 118, - p. 1-5; Nicolas Sarkozy: There are too many foreigners in France: [Electronic resource] / The Guardian, - May 16, 2012. URL:www.guardian.co.uk/world/2012/mar/07/nicolas-sarkozy-too-many-foreigners; Menegaux, C. Guéant: La Hausse du Nombre de Musulmans Pose Probléme: [Ressource électronique] / Le Figaro, - 4 Avril, 2011. URL: https://www.lefigaro.fr/politique/2011/04/04/01002-20110404ARTFIG00660-gueant-la-hausse-du-nombre-de-musulmans-pose-probleme.php; Ratka, E. Germany and The Arab Spring-Foreign Policy Between New Activism and Old Habits // German Politics and Society, - United States: - 2012, 30 (2), - p. 59-74.

[11] Ministry of Foreign Affairs of Arabic Republic of Egypt: [Electron recource] / - 9 September 2021. URL: www.mfa.gov.eg; Ministry of Foreign Affairs of Arabic Republic of Egypt: [Electron recource] / -16 November 2022. URL: www.mfa.gov.eg; Ministry of Foreign Affairs of Arabic Republic of Egypt: [Electron recource] / -30 December 2019. URL: www.mfa.gov.eg

[12] Defiant Gaddafi vows to fight on: [Electronic resource] / Aljazeera, - May 23, 2021.URL:https://www.aljazeera.com/news/africa/2011/02/201122216458913596.html; EU freezes assets of allies of Tunisia's ousted Ben Ali: [Electron recource] / BBC News, - 4 February, 2011. URL: https://www.bbc.com/news/world-africa-12370591

[13] Reuter, A. G8 Zirvesi Yoğun Gündemle Başladı: [Elektronik kaynak] / Deutsche Welle Türkçe – Mayıs 26, 2011. URL: http://dw.de/p/11Oe2; Tunisia political crisis deepens after assassination: [Electronic resource] / BBC News, - February 7, 2013. URL: https://www.bbc.com/news/world-africa-21366235; Yemen Country Report, 2021 Country Reports on Human Rights Practices: Yemen: [Electron recource] / Bureau of Democracy, Human Rights, and Labor. - 29 May, 2022. URL: https://www.state.gov/reports/2021-country-reports-on-human-rights-practices/yemen/

sıra kitab və məqalələrin müəllifi A.Bağırovanın[14], tanınmış şərqşünas alimlər, araşdlrmalarında "Ərəb baharı" ölkələrində baş verən siyasi çalxalanmalara toxunan R.İsmayıl və N.Axundovanın əsərləri xüsusilə əhəmiyyətli olmuşlar. Azərbaycanlı tədqiqatçılardan T.Abbasov, C.Əlisgəndərli, H.Məmmədova, T.Orucova, N.Yaqublunun araşdırmalarını[15] dissertasiya üçün əhəmiyyətli edən, onlarda Ərəb baharının geosiyasi aspektləri, Avropada multikulturalizm, İslamofobiya və s. məsələlərə aydınlıq gətirilməsidir.

Tədris-metodik səviyyəli araşdırmalardan M.Baxışovun, H.Soltanova və C.Məmmədovun kitabları[16] Avropa dövlətlərinin xarici siyasətlərinin əsas aspektləri, Yaxın Şərq regionunun coğrafi baxımdan müəyyənləşdirilməsi məsələlərində əhəmiyyətli olmuşlar.

Mövzunun araşdırılması prosesində *Türkiyə tarixşünaslığından* tədqiqatlar A.Hüseynin, M.Özcanın, T.Kışlakçının, A.Cıngının[17] və b. araşdırmalarından da istifadə edilmişdir.

---

[14] Bağırova, A. Ərəb baharı: Gözləntilər və reallıqlar. – Bakı: Heroqlif, – 2007. – 168 s.; Bağırova, A. İraqın xarici siyasəti (1968-2003). – Bakı: Adiloğlu, – 2003, – 500 s.; İsmayılov, R. Axundova, N., Bağırova, A., Ərəb ölkələrinin çağdaş tarixi: I hissə: Asiyanın ərəb ölkələri. – Bakı: Xəzər Universiteti nəşriyyatı, – 2013. – 400s.

[15] Əlisgəndərli, C. Ərəb baharı: Geosiyasi və Geoiqtisadi maraqların qarşılıqlı təsiri / – Bakı: Tarix və onun problemləri. – 2013. №4, – s.263-272; Əlisgəndərli, C. Ərəb baharı (Analitik baxış). "Ərəb baharı" kontekstində Türkiyə və İran / – Bakı: Tarix və onun problemləri. – 2014. №1, – s.163-168; Məmmədli, H. Bir daha "Ərəb Baharı" haqqında: [Elektron resurs] / NewTimes, Anatical İnformation, - Dekabr 12, 2012. URL: http://newtimes.az/az/relations/1188; Orucova, T. Qərbi Avropada multikulturalizm və islamofobiyanın qarşılıqlı əlaqəsi: [Elektron resurs] / Geostrategiya, -Aprel 4, 2021. URL: https://www.geostrategiya.az/news.php?id=144; Yaqublu, N. Yaxın Şərqdə demokratiya niyə uğursuzluqla nəticələnir: səbəblər və amillər: [Elektron resurs] / Geostrategiya, - Dekabr 16, 2020. URL: https://www.geostrategiya.az/news.php?id=109

[16] Baxışov, M.Ə. İtaliyanın yeni və müasir tarixi. / – Bakı: 3 saylı Bakı Mətbəəsi ASC, -2018, -s.119.; Baxışov, M.Ə. Fransanın yeni tarixi dərs vəsaiti, Bakı: Şirvannəşr, 2013.- 100 s.; Baxışov, M.Ə. Almaniyanın yeni tarixi. Dərs vəsaiti. / – Bakı: Şirvannəşr, 2008.- 104 s.; Soltanova, H., Məmmədov, C; "Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası", / – Bakı: Bakı Universiteti, -2008. -303s.

[17] Hüseyin, A. Batının İslamla Kavgası / - İstanbul:Pınar Yayınları, -2017. -144s.; Özcan, M. Arap Baharı ve Sonrası İslami Hareketler Yol Ayrımında / - Konya: Çizgi kitapevi, - 2017, - 166 s.; Kışlakçı, T. Arap Baharı / – İstanbul: İlimyurdu yayıncılık,

Mövzunun tədqiqi prosesində Qərb müəlliflərindən B.Lyuis, M.S.Kramer, M.Byanko, A.Teril, L.Anderson və başqalarının[18] Avropa dövlətlərinin Yaxın Şərqdə yürütdüyü siyasət, Ərəb baharı hadisələrinin yaranmasına səbəb hadisələri, Qərbin xarici siyasətində İslam amili və Avropa dövlətlərinin Ərəb baharı perspektivlərinin təhlil edildiyi kitab və məqalələrindən də istifadə olunmuşdur.

Tədqiqat işi araşdırılarkən, rus müəlliflərdən V.A.Sadovniçij, A.A.Akayev, A.V.Korotayev, S.Y.U.Malkov, M.V.Sapronova, M.J. Şumaxer, K.M.Truvcev və b.[19] əsərlərinə Yaxın Şərq ölkələrindəki mövcud siyasi durumu, ictimai vəziyyəti araşdırıb təhlil etmək məqsədi ilə diqqət yetirilmişdir.

Dissertasiyanın yazılmasında araşdırmalarından xüsusilə faydalandığımız müəlliflərdən iranlı alim H.Dabaşinin, amerikalı politoloq

– 2013. – 248 s.; Cıngı, A. Ortadoğunun öfkesi ve Batıda ırkçılık; Arap Baharı - Avrupa Sağı-Etkileşimler / - İstanbul: Kalkedon Yayınları, - 2011, - 112 s.

[18] Lewis, B. The Middle East. 2000 Years Of History From The Rise Of Christianity to the Present Day. / - New York: Orion Publishing Co- 2019, - 448 p.; Lewis, B. What Went Wrong?: Western Impact and Middle Eastern Response. / - New York: Oxford University Press, - 2002, - 192 p; Lewis, B. What Went Wrong?: The Clash Between Islam and Modernity in the Middle East. / - New York: Harper Perennial, - 2003, - 208 p.; Kramer, M. Physik als Abenteuer: Band II: Wärmelehre und Mechanik / - Hamburg: Kallmeyer, -2016, - 271 b.; Baring, E., Cromer, E. Political and Literary Essays, 1908–1913, The Government of Subject Races. Edinburgh Review 207 (1908): / Cambridge: Cambridge University Press, - 2010, - 277 p.; Terrill, A. Arab Threat Perceptions and the Future of the U.S. Military Presence in the Middle East / - Strategic Studies Institute (U.S.): Department of the Army, - 2016, - 120 p.; Anderson, L. Arab Democracy: Dismal Prospects // World Policy Journal, - Duke University Press: - 2001, 18 (3), Fall, - p.53-60; Anderson, L. Demystifying the Arab Spring- Parsing the Differences Between Tunisia, Egypt and Libya / Foreign Affairs, - Canada: -2011, 90 (3), – p.2-7.

[19] Садовничий, В.А. Акаев, А.А., Коротаев, А.В., Малков, С.Ю., Моделирование и прогнозирование мировой динамики. / - Москва: ИСПИ РАН. – 2012. – 359 с.; Сапронова, М.В. Становление новой государственности на Арабском Востоке. Международные процессы. // Том 13. - Москва: - 2015. 3(42), - с.26-39; Шумахер, М.Дж. Шредер, П.Дж., Способствует ли внутриполитическая нестабильность терроризму? Global Evidence эпохи арабской весны (2011–2014 гг.). // Studies in Conflict and Terrorism, - Chicago: – 2021. 44 (1), - с. 44-72; Труевцев К.М. Жасминовая революция в Тунисе. // Системный мониторинг глобальных и региональных рисков. – 2013. 4 (1), - с. 365–386.

B.R.O'Qorman Andersonun, N.Danielin, ərəb mütəfəkkirlərdən Ə.Ə. Məvdudinin, Ə.Suruşun, Tunisin Əl-Nahda partiyasının qurucusu R.Əl-Qannuşinin [20] də adlarını qeyd etmək istərdik.

Araşdırma zamanı demokratiya ilə uzlaşan fikir adamları ilə yanaşı, demokratiyaya qarşı olan görüş nümayəndələrinin fikirləri qarşılaşdırılmış, XX əsr ərəb mütəfəkkirlərinin fikirləri, Avropa və Amerika əsilli tarixçi, siyasətçi, oryantalist fikir nümayəndələrinin və analitiklərin fikirləri ilə birlikdə, təhlil və tənqid edilmişdir.

Dissertasiya işinin araşdırılması zamanı internet resurslarından, müxtəlif saytlarda yerləşdirilən analitik xülasələrdən, beynəlxalq təşkilatların və xəbər agentliklərinin sənədlərindən də geniş şəkildə istifadə olunmuşdur.

Dissertasiya işinin xronoloji çərçivəsini Ərəb baharı illəri təşkil edir. Avropa ölkələri ilə Ərəb ölkələri arasında xarici siyasət və İslam amilini təhlil edərkən, Ərəb baharı hadisələrinin başlandığı 2010-cu il dekabrından 2011-ci il oktyabra qədərki dövr əsas götürülmüşdür. Eyni zamanda, proseslərin mahiyyətinin daha düzgün aydınlaşdırılması, həmçinin Avropanın aparıcı dövlətlərinin xarici siyasətində İslam amilinin bu qədər qabarıq şəkildə meydana çıxmasını düzgün başa düşülməsi üçün əvvəlki dövrlərdə baş vermiş hadisələrə də toxunulmuş, 2001-ci il 11 sentyabr hadisələrindən sonra Avropa və ABŞ-da "terrorla mübarizə" kampaniyası dövründə xüsusilə güclənmiş İslamofobiya "müzakirələrinə" də diqqət yetirilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini Avropanın aparıcı dovlətləri Almaniya, Fransa, İngiltərə və İtaliyanın Yaxın Şərq siyasətində İslam amili təşkil edir.

---

[20] Dabaşi, H. Arap Baharı: Postkolonyalizmin Sonu (çev., Eser, A.T.) / - İstanbul: Sümer Yayıncılık, - 2015. – 350 s.; Anderson, B. Hayali Cemaatler. Milliyetçiliğin Kökenleri ve Yayılması, çev. İskender Savaşır / – İstanbul: Metis Yayınları, -2020, - 272 s.; Daniel, N. Islam and the West: The Making of an Image / - England: Oxford, Oneworld Publications, - 2009, - 472p.; Ahmad, İ. Demokrasi ve İslam // İslâmi Araştırmalar Dergisi, - Ankara, - 2012, 23(2), - s.79-89; Süruş, A. Maksimum ve Minimum Din / - Ankara: Fecir Yayınları, 2002, - 176 s.; Ghannouchi, R. From Political Islam to Muslim Democracy: The Ennahda Party and the Future of Tunisia // Foreign Affairs, - America: -2015. 95(5), - p.58-67.

Predmetini isə adı çəkilən dövlətlərin Ərəb baharı illərində Yaxın Şərq siyasətində İslam amili təşkil edir. Yəni, Almaniya, Fransa, İngiltərə və İtaliyanın Yaxın Şərq siyasətində İslam amilinin xarakterik xüsusiyyətləri; İslamafobianın Avropa ölkələrinin daxili və xarici siyasətində yeri; Ərəb baharı hadisələrinin siyasi İslama təsiri prosesi; tədqiq olunan dövrdə Avropanın aparıcı dövlətlərinin ikitərəfli və çoxtərəfli əlaqələrinin tənzimlənməsində İslam amilinin yeri və rolu, Yaxın Şərq ölkələri ilə əlaqələrin dinamikası.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi mənbə və ədəbiyyatın obyektiv təhlili əsasında göstərilən dövrdə Avropanın aparıcı ölkələrindən Almaniya, Fransa, İngiltərə və İtaliyanın Yaxın Şərq siyasətində İslam amilinin araşdırılmasından ibarətdir. Bundan irəli gələrək, dissertasiya işində məqsədə nail olmaq üçün qarşıya aşağıdakı konkret vəzifələr qoyulmuşdur:

- Problemə dair müxtəlif dillərdə olan mötəbər mənbə və ədəbiyyatları toplamaq, sistemləşdirmək və təhlil etmək;
- Ərəb baharı dövründə Yaxın Şərq bölgəsində Avropa ölkələrinin maraqlarını müəyyənləşdirmək;
- Ərəb baharı illərində islamçı hərəkatların və müsəlmanların, Avropanın xarici siyasətinə təsirini tədqiq etmək;
- Avropa ölkələrində, o cümlədən dünyada İslama qarşı təşkilatlanma mərkəzlərinin və İslamofobiya cərəyanının coğrafiyasını müəyyənləşdirmək;
- Üsyanlar dövründə islamçı hərəkatlar və qruplaşmalar tərəfindən ələ keçirilmiş bölgələrin ümumi idarəçilik sistemi və ayrı-ayrı vəziyyətini müqayisəli təhlil etmək;
- Ərəb baharı inqilabları dövründə uğursuz dəyişikliklər və yeni münaqişələri tarixi mənbələrin faktları əsasında öyrənmək;
- O dövrdə Yaxın Şərqdə və Şimali Afrikada fəaliyyət göstərən ictimai-siyasi təşkilatların və cəmiyyətlərin, siyasi İslamla bağlı həyata keçirdikləri fəaliyyəti tədqiq etmək;
- Avropa ölkələrinin öz ərazilərində və digər bölgələrdə, qaçqınlara və qanunsuz immiqrantlara qarşı həyata keçirdiyi tədbirləri araşdırmaq;
- Avropa ölkələrinin Ərəb üsyanları dövründə Yaxın Şərqə və İslama, siyasi və iqtisadi tərəfdən yanaşmasını müəyyənləşdirmək;

- Siyasi İslam və demokratiya ilə bağlı Avropada o dövrdə fəaliyyət göstərən mətbuat orqanların informasiyalarını, məqalə və xəbərləri tarixi-faktoloji konteksdə təhlil etmək;

- Ərəb baharından sonrakı dövrdə regionla bağlı beynəlxalq hüquqi prosesləri, müzakirələri, çoxtərəfli və ikitərəfli müqavilələrin ölkələrə dair maddələrini təhlil etmək və razılaşmaların həyata keçirilmə prosesini öyrənmək;

- Həm inqilab illərində, həm də inqilabdan sonrakı ilk illərdə cərəyan edən ictimai-siyasi proseslərin Avropadakı müsəlman əhaliyə təsirlərini müəyyənləşdirmək;

- Müsəlmanların demokratiya mübarizəsində iştirakını tədqiq etmək;

- Avropa dövlətlərinin Ərəb baharı dövründəki siyasətlərinə aydınlıq gətirmək üçün hadisələrin tarixi aspektinə nəzər salmaq;

- Avropada İslamla bağlı görülən tədbirlərin, Ərəb ölkələrindəki mübarizənin nəticəsinə təsirlərini aydınlaşdırmaq;

- Avropanın aparıcı ölkələrinin və rəsmi təşkilatlarının İslam və Yaxın Şərqlə bağlı fəaliyyətlərini təhlil etmək;

- Avropanın tədqiqat dövründəki ictimai-siyasi və sosial-iqtisadi həyatını, araşdırma və faktlar əsasında tədqiq və təhlil etmək.

**Tədqiqat metodları.** Təqdim olunan və tədqiqata cəlb edilmiş ilkin mənbələrin materiallarının və tədqiqatlardakı faktların, mülahizələrin, ədəbiyyatın kompleks tənqidi və müqayisəli təhlilinə söykənən obyektiv tarixi yanaşma dissertasiyanın metodoloji əsasını təşkil edir. Tədqiqat işinin aparılması zamanı, tarixi və siyasi yanaşmanın sintezini özündə ehtiva edən bu araşdırmanın ümumi tarix metodlarından, o cümlədən müqayisəli təhlil, tənqidi təhlil, sistemi analiz, statistik metodlardan istifadə olunmaqla sahələrarası xarakter daşıdığı qeyd edilməlidir. Tədqiqatın nəzəri-metedoloji bazası araşdırılan problemlərin tarixi inkişafın müxtəlif mərhələlərində inkişaf və xüsusiyyətlərini izləməyə imkan yaradan xronoloji prinsipə əsaslanır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində aşağıdakı müddəalar müdafiəyə çıxarılmışlar:

1. Ümumilikdə dünyanın, o cümlədən Avropanın aparıcı dövlətlərinin xarici siyasətlərində İslam amilinin kəskin şəkildə özünü göstərməsi 11 sentyabr 2001-ci il hadisələrinin nəticəsində baş vermiş,

hətta “Ərəb baharı”nın özü də bu prosesin bir hissəsi olaraq meydana çıxmışdır;

2. Ərəb baharı geosiyasi amillərin təsiri ilə baş vermişdir. Daxili səbəblər, əslində xarici təsirlərin təhriki ilə başlanmış hadisələr üçün münbit zəmin rolunda çıxış etmişlər;

3. Ərəb baharı hadisələri nəticəsində miqrasiya hərəkətlərinin artması Avropanın aparıcı dövlətlərinin xarici siyasətində İslam amilinin daha qabarıq şəkildə hiss edilməsinə səbəb olmuşdur;

4. Hədəflərinin “avtoritar rejimlərin demokratik rejimlərlə əvəz edilməsi” olduğunu bildirən Avropa dövlətləri, bəhs edilən dövrdə də əslində bölgəyə daha çox öz Şərq sərhədlərinin təhlükəsizliyini təmin etmək, sonra isə, öz aralarında apardıqları güc yarışında üstün mövqe əldə etmək üçün, mühüm strateji məntəqə kimi baxmışlar;

5. Ərəb baharının əhatə etdiyi ölkələrə münasibətdə Avropanın aparıcı dövlətləri hədəflərinin “baş verən demokratik dəyişiklikləri dəstəkləmək” olduğu deməlérinə rəğmən, öz siyasətləri ilə bu ölkələrə əsasən xaos və dağınıqlıq gətirirlər;

6. Tədqiq olunan dövrdə Avropanın aparıcı dövlətlərinin Yaxın Şərq siyasəti, ümumilikdə böyük güclər arasında, dövrə uyğun yeni xüsusiyyətlər nəzərə alınaraq bir qədər dəyişiklik edilmiş nüfuz uğrunda mübarizənin bir hissəsidir;

7. Tarixən olduğu kimi, günümüzdə də aparıcı dövlətlərin xarici siyasətində İslam amili, islamofobiyanın təbliği geosiyasi mübarizə formalarından biridir.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya işində tarixşünaslıqda ilk dəfə olaraq “Ərəb baharı illərində Avropa ölkələrinin Yaxın Şərq siyasətində İslam amili” mövzusu kompleks şəkildə ayrıca problem kimi elmi-nəzəri cəhətdən sistemli tədqiq olunmuşdur. Tədqiqat zamanı mövzuya dair ilkin mənbələr, o cümlədən geniş tarixi ədəbiyyat ətraflı araşdırılaraq aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- Dissertasiya beynəlxalq və regional münasibətlər kontekstində, Ərəb baharı hadisələrinin baş verdiyi dövr əsas alınaraq, Avropanın aparıcı ölkələri olan, Almaniya, Fransa, İngiltərə və İtaliyanın Yaxın Şərq siyasətində İslam amilini kompleks şəkildə araşdıran ilk tədqiqat işidir;

- Mənbə və ədəbiyyatın hərtərəfli, tənqidi və obyektiv təhlili əsasında, Avropa ölkələrinin Yaxın Şərqə yönəlik siyasətinin müxtəlif dövrlərində hakim olan İslama baxış forması, strategiya və taktikası araşdırılıb, Qərb ölkələrinin ikitərəfli və çoxtərəfli əlaqələrinin xarakterik xüsusiyyətlərində İslamın yeri, inkişaf dinamikası və təkamülü üzə çıxarılmışdır;

- Yaxın Şərq ölkələrinin iqtidar sistemi nümunəsində, Ərəb baharı hadisələri baş verən illərdə, Yaxın Şərqdəki ictimai hərəkatlar və siyasi İslam əsasında formalaşan demokratik çıxışlar, Avropanın xarici siyasəti və Yaxın Şərqə yanaşması nöqteyi-nəzərindən təhlil edilmişdir;

- Ərəb baharının şiddətli yaşandığı ölkələrdə mədəni sərhədlər daxilində, etnik, dini və məzhəb fərqlilikləri təhlil edilmişdir;

- Avropa ölkələrinin regional problemlərin həllində İslamın din və siyasi yanaşma prinsipləri əsasında başlıca xüsusiyyətləri araşdırılmışdır;

- Almaniya, Fransa, İngiltərə və İtaliyanın xarici siyasət konsepsiyalarının İslama münasibətdə təkamülünün sosial mahiyyəti açılmış, Yaxın Şərq və müsəlman cəmiyyətlərdə lider dövlətə, regional güc mərkəzinə çevrilmək uğrunda apardığı mübarizə, geosiyasi və regional proseslərin fonunda təqdim edilmişdir;

- Ərəb baharı hadisələrinin və daxili amillərin Avropanın İslama baxış mövqeyinin formalaşmasına təsiri araşdırılmışdır;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin başlıca müddəaları və elmi nəticələri nəzəri və praktiki əhəmiyyət daşıyır. Tədqiqat işində əldə edilən yekun elmi nəticələr Ərəb baharı hadisələri dövründə və sonrakı illərdə Avropanın aparıcı ölkələri Almaniya, İngiltərə, Fransa, İtaliyanın Yaxın Şərq siyasəti çərçivəsində İslama münasibəti ilə bağlı tədqiqat işlərinin aparılmasında, ümumiləşdirilmiş əsərlərin yazılmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyada irəli sürülən əsas elmi müddəalar və nəticələr müəllifin Azərbaycanda və xaricdə çap etdirdiyi elmi məqalələrdə, müxtəlif elmi-praktik konfrans və simpoziumlardakı məruzələrində öz əksini tapmışdır. Müəllif dissertasiya ilə bağlı 6 məqalə, 3 tezis yazmış və 7 simpoziumda çıxış etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Türk xalqları tarixi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, 7 yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş - 33.567, I fəsil - 63.516, II fəsil - 54.625, III fəsil - 97.217, Nəticə - 11.082 olmaqla, dissertasiyanın ümumi həcmi 288.845 işarədən ibarətdir.

## II.DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Tədqiqatın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi və mənbəşünaslıq bazası təhlil edilir, nəzəri-metodoloji məsələlərə aydınlıq gətirilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, işin elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiya işinin I fəsli **"Tarixi və coğrafi müstəvidə Ərəb baharının nəzəri-konseptual məsələləri"** adlanır və üç paraqrafdan ibarətdir. **"Yaxın Şərq və Ərəb baharı fenomeni anlayışları"** adlı birinci yarımfəsildə Yaxın Şərq və Ərəb baharı haqqında ümumi fikirlər, anlayışlar araşdırılır. Yaxın Şərq adlanan bölgə üçün siyasi, coğrafi, iqtisadi və mədəni fərqliliklər nəzərə alınmaqla bir çox başqa təriflər verilmişdir. Digər tərəfdən, Yaxın Şərqin tərifi daha çox siyasi qiymətləndirmə yolu ilə verilir[21].1855-ci ilə qədər yaxın və uzaq şərq anlayışları xüsusi bir bölgəyə aid edilmirdi. XIX əsrin ortalarında Krım müharibəsi zamanı da bu terminlərin istifadəsi lüğətdə əhəmiyyətli dəyişikliyə gətirdi. XIX əsrdə Rusiya imperiyası xarici siyasətdə daha təcavüzcü bir mərhələyə qədəm qoydu, həm Osmanlı imperiyasına, həm də Çinə qarşı hərbi cəhətdən fəallaşdı. Bu zaman, Britaniya hökuməti də, ruslara qarşı dayandı və nəticədə Krım müharibəsi oldu. XIX əsrdə, bu müharibə zamanı Britaniya hökuməti "Yaxın Şərq" və

[21] Elpe, T. Arap Baharı Kapsamında Avrupa Birliği'nin Ortadoğu Politikası / YLT. Gazi Universitesi, 2017, - s.27.

"Uzaq Şərq" deyə xüsusi regional mənalar verən yeni ifadələrdən istifadə etməyə başladı. Yaxın Şərq anlayışı digər tərəfdən, XIX əsrin əvvəllərinə qədər fransızların Osmanlı imperiyasının torpaqları üçün işlətdiyi termin olmuşdur.

Həm xalq üsyanı kimi, həm də Yaxın Şərq xalqlarının ilk dəfə olaraq mütəşəkkil formada demokratiya üçün ayaqlandığı Ərəb baharı, nəticələrinə görə ilk dəfə inqilabi xüsusiyyət nümayiş etdirmişdir. Ərəb xalq hərəkatları "Ərəb baharı" adlandırılmadan əvvəl, hadisələrin yalnız Tunislə məhdudlaşacağı düşünüldüyü üçün ilk öncə "Yasəmən inqilabı" adlandırılmışdır. Üsyanların Misir və Liviyaya yayılması ilə, hadisənin təsir dairəsini genişləndirərək irəliləməsindən sonra ərəb dünyasında "Ərəb baharı" adı ilə bəhs edilməyə başlandı. 14 yanvar 2011-ci ildə Bin Əlinin ölkədən qaçması ilə başa çatan proses çox vaxt "Yasəmən inqilabı" adlandırılır[22]. Proses irəlilədikcə, Yasəmən İnqilabının sərhədlərini genişləndirdiyi və bu tərif qənaətbəxş etmədiyi üçün "Ərəb baharı" adı tələffüz olunmağa başladı. Bu adlandırmanın "Praqa baharı"ndan da ilhamlandığı deyildi[23].

**"Ərəb baharının coğrafiyası və regionun strateji əhəmiyyəti"** adlı ikinci yarımfəsildə Ərəb baharı hadisələrinin baş verdiyi coğrafiya, xüsusən hadisələrin şiddətli yaşandığı Yaxın Şərq dövlətlərindən Tunis, Misir, Liviya, Bəhreyn, Yəmən, Suriya araşdırılır və regionun strateji əhəmiyyəti kontekstində ticarət və nəqliyyat dəhlizləri, Enerji resursları, təbii qaz və neft amilləri araşdırılır. Avropanın bu regiona münasibətdə strateji əhəmiyyət kəsb etməsi ilə bağlı məsələlər təhlil olunur.

Yaxın Şərq bölgəsi üç qitənin kəsişməsində İngiltərə, Fransa, Amerika, Almaniya və Rusiya kimi böyük ölkələr üçün strateji əhəmiyyətli bir qapıdır. Boğazlar vasitəsilə Qara dənizi Aralıq dənizinə, Süveyş kanalını isə Hind okeanına birləşdirir. Bu mühüm xüsusiyyəti ilə yanaşı, Yaxın Şərq tarix boyu böyük, dini əsaslı qarşıdurmalara və siyasi rəqabətlərə səhnə olmuşdur. Birinci Dünya Müharibəsindən

---

[22] Koçak, K.A. Mısır: Demokratikleşme Yolunda İki Adım İleri Bir Adım Geri // Yaşama Dergisi, -İstanbul: - 2013, (23), - s.24.
[23] Tekek, M. Arap Baharı ve Nedenleri: [Elektronik kaynak] / - Kasım 28, 2012. URL: https://www.tuicakademi.org/arap-bahari-ve-nedenleri/

sonra bölgənin sülh və əmin-amanlığı pozulmuş, böhranlar və müharibələr bölgəsinə çevrilmişdir[24].

**"Ərəb baharını şərtləndirən səbəblər"** adlı üçüncü yarımfəsildə Ərəb baharı hadisələrinin başlanmasına səbəb olan faktorlar, korrupsiya, işsizlik, insan haqqları, milli sərvətlər və neft amili, cəmiyyətdə gənclərin çoxluq təşkil etməsi, kütləvi informasiya vasitələri, siyasi və sosial olmaqla qruplaşdırılıb təhlil edilir. Həmçinin hadisələrin baş verməsinə səbəb amillər tarixi-mədəni faktorlar və xarici faktorlar olaraq da öyrənilmiş, onların nəticələri də izah edilmişdir. Qeyd edilmişdir ki, araşdırmalar nəticəsində, ilkin nəzərə çarpan amil, üsyana qoşulan ölkələrin hamısının demokratiyadan uzaq olmasıdır.

Sosial medianın olması da, Ərəb baharının başlamasında və böyüməsində əsas amil hesab oluna bilər. Hətta bəzi alimlər (Lotan, Graeff, Ananny, Gaffney, Pirs və Boyd), sosial medianın informasiyadan istifadə edərək etiraz və üsyanı təhrik etmək, saxlamaq gücünə malik olduğunu iddia edirlər. Sosial medianın demokratiyaya keçid üçün ümidin gücləndirilməsində və Ərəb baharı hadisələri zamanı rolu böyük oldu. Sosial media qlobal ünsiyyət vasitəsi kimi müxalifət qruplarını koordinasiya etmək və insanlar arasında həmrəylik yaratmaq imkanı verirdi[25]. Ərəb ölkələrində liderlər insanlar tərəfindən sosial mediaya çıxışa nəzarət etməyə çalışdılar, sonra bir çox avtoritar liderlər öz ölkələrində internet xidmətlərini və 3G şəbəkələrini tamamilə dayandırdılar[26]. Liviyada internet kəsintisi oldu, lakin buna baxmayaraq, Liviyanın əsas mediası proseslə bağlı həqiqəti yayımlamadığından, nümayişlər zamanı baş verənlərlə bağlı xəbərlərin digər ölkələrə çatdırılmasında sosial medianın böyük təsiri oldu[27]. Misirli etirazçılar Ərəb baharı zamanı daha çox sosial media və internetdən istifadə

---

[24] Karadağ, R. İsrail-Ortadoğu-Amerika / - İstanbul: Truva Yayınları, -2020, - s.212.
[25] Wolfsfeld, G. Social Media and the Arab Spring: Politics Comes First / E. Segev, T. Sheafer, // The International Journal of Press/Politics, - Jerusalem: - 2013, 18(2). -p. 117.
[26] Yenə orada - p. 120.
[27] Beaumant, P. The truth about Twitter, Facebook and the uprisings in the Arab world: [Electronic resource] / - May 23, 2011. URL: https://www.theguardian.com/world/2011/feb/25/twitter-facebook-uprisingsarab-libya

ediblər. Xüsusilə Twitterdə Mübarəkə “#Get!” (#Leave!) həştəqi ilə mesaj göndərdilər[28].

Dissertasiyanın ikinci fəsli **“Ərəb baharı öncəsi Yaxın Şərqdəki mövcud durum fonunda Avropanın aparıcı dövlətlərinin region siyasətində İslam amili”** adlanır və iki yarımfəsildən ibarətdir. **“Yaxın Şərq ölkələrinin siyasi sistemində İslamın yeri”** adlanan birinci yarımfəsildə Yaxın Şərq ölkələrindən Ərəb baharı daha şiddətli baş verən ölkələr başda olmaqla, region millətlərinin İslama baxışı, islamçı cərəyanlar, ərəb millətçiliyi və siyasi ideologiyalar təhlil edilir. Avropanın aparıcı dövlətləri başda olmaqla, Avropa birliyinin və Amerikanın baş verən proseslər nəticəsində, ortaya çıxan ekstremist dini terror fəaliyyətlərinə və miqrasiya hərəkatlarına reaksiyasının kompleks şəkildə araşdırılmasına həsr olunmuş, Soyuq müharibə dövründəki xarici siyasət, 11 sentyabr hadisələrindən sonrakı dövrün siyasətinin əsas vektorları təhlil edilir[29].

**“Ərəb baharı ərəfəsində Almaniya, Fransa, İngiltərə və İtaliyanın Yaxın Şərqə yönəlik siyasətində İslam amili”** adlanan ikinci yarımfəsildə Avropanın aparıcı dövlətlərindən sayılan Almaniya, İngiltərə, Fransa və İtaliya ayrı-ayrılıqda həm qərbin həm şərqin siyasi həyatında rolu, Yaxın Şərqdə baş verən modernləşmənin tarixi seyri və əsas istiqamətləri öyrənilir. Həmçinin Yaxın Şərqə yönəlik siyasətdə tarix boyu İslam amilindən necə və nə məqsəd ilə istifadə etmələri müxtəlif aspektlərdən təhlil edilir.

Soyuq müharibədən sonrakı dövrdə Yaxın Şərqdə hökm sürən fikir birlik yaratmaq və dünyanın digər güclü dövlətləri ilə mübarizə aparmaq idi. Bu məqsədlə Yaxın Şərqdə pan-ərəbizm ideyası irəli sürüldü. Pan-ərəbizm Yaxın Şərqin ərəbdilli xalqlarının bölünmüş

---

[28] Roberts, T. Emotion, Values, and Religion: The Struggle for Legitimacy in Post-Conflict Arab Spring States: / Post-Conflict Justice-Final Draf. / - Williamsburg, 2013. – p.14.

[29] Özer, A. 11 Eylül, Bölünen Dünya, Hantington Ve Çatışma / Toplum Ve Demokrasi, - İstanbul: - 2009, 3(5), - s.191-210.

dövlətlər halında deyil, vahid milli dövlət altında birləşməli olduğu inancıdır[30].

Fransa, İngiltərə, İtaliya və İspaniya kimi Avropa ölkələri, keçmişdə Yaxın Şərq regionunda koloniyaları olan ölkələr olub. Ona görə də, Yaxın Şərqdəki siyasi, iqtisadi və sosial şərait Avropanın həm təhlükəsizliyinə, həm də iqtisadi maraqlarına təsir edir[31].

Almaniyanın tarixində Yəhudi soyqırımı olması, II Dünya müharibəsindən sonra İsrail ilə qurduğu əlaqələr, ərəb xalqı üçün pis təsir yaratsa da, digər Qərb ölkələri ilə müqayisədə, Fransa və İngiltərə kimi imperiya keçmişindən gəlməməsi daha müsbət qiymətləndirilmişdir[32].

İtaliyada müsəlmanların Milli Faşist Partiyasına, xüsusən də, Müsəlman Liktorlar Cəmiyyətinə qoşulmasına icazə verən qanunlar qəbul edildi. Bu islahatlar, İtaliya ordusunda, otuz min yerli müsəlman əsgərdən ibarət, Liviya hərbi hissələrinin yaradılmasına imkan yaratdı. Liviyanın italyanlar tərəfindən işğalı, Cənubi Afrika müsəlmanları tərəfindən, böyük maraq və diqqətlə izlənildi[33].

Dissertasiyanın üçüncü fəsli **"Ərəb baharı dövründə Avropanın aparıcı dövlətlərinin region siyasətində İslam amili"** adlanır və iki yarımfəsildən ibarətdir. **"Ərəb baharının əhatə etdiyi ölkələrdə dəyişmə (modernləşmə), demokratikləşmə cəhdləri və İslam"** adlı birinci yarımfəsildə demokratik dəyərlər və İslam amili həm mənfi fikirlər baxımından, həm müsbət yanaşmalar baxımından ayrı-ayrılıqda təhlil edilir. İslamda siyasi institutlar, dünyəvilik, **"dünyəvi hüquq"** və **"İslam hüququ"** qarşılaşdırması, Ərəb baharı dövründə Siyasi İslamın rolu öyrənilir.

---

[30] Öztürk, T.E., Dünden Bugüne Pan-Arapçılık ve Arap Baharı: Yeni Bir Pan-Arap Uyanış Mı? / Akademik Orta Doğu: Altı Aylık Orta Doğu Araştırmaları Dergisi, - İstanbul: -2012, - s. 125.

[31] Dagcı, K. The EU's Middle East Policy and Its Implications to the Region // - Alternatives Turkish Journal of International Relations, - Yalova: - 2007, Vol 6, Issue: 1&2, - p.179.

[32] Perthes,V. Relations to the Arab World, Germany and The Middle East Interest and Options, / - Berlin: Heinrich Böll Foundation in Co-Operaiton with Stiftung Wissenschaft und Politik, - 2002, -p.129-130.

[33] Çabuk, M. Senusilik Ve İşgalcilere Karşı Kuzey Afrika'da Osmanlı - Senusi İş Birliği //Sütçü İmam Üniversitesi, Sosyal Bilimler Dergisi,-Kahramanmaraş: - 2019, 16 (1), - s.226.

XX əsrdə Yaxın Şərq, İslam düşüncəsinin canlandığı və müdafiə olunduğu mərkəzlərdən birinə çevrildi. Xüsusilə, modernləşmə xəttində millətçilik və kommunizm ideologiyalarının ictimaiyyəti qane etməməsi, İslam düşüncəsinin tərəqqisinə yol açdı. İqtisadi ədalətsizlikdən, siyasi qarşıdurmalardan və mənəvi fəsadlardan əziyyət çəkən Yaxın Şərq bölgəsi xalqı, çarəni İslamda axtarmağa başladı[34].

İslam öz daxilində siyasət və inancı birləşdirən, həm dünyəvi, həm siyasi cəhətləri olan dindir. İslamla bağlı təsəvvürlərdə dəyişiklik baş verərkən, "siyasi İslam", "fundamentalizm", "radikal İslam", "islamcılıq" terminlər siyasi qruplaşmaların zorakı hərəkətlərini təhlil və tənqid etmək üçün istifadə edilməyə başladı. Terminlərin konseptual mənada istifadəsi ilə bağlı fikir birliyi olmasa da, İslam hökmləri çərçivəsində, qurulmuş siyasi sistemi dəyişdirməyi və ya tamamilə ləğv etməyi hədəfləyən bütün cərəyanlar "Siyasi İslam" olaraq adlanır. Avropa və ABŞ-ın nəzarəti altında formalaşan Yaxın Şərq coğrafiyasında İslamın hər bir forması antisekulyar olaraq sistemdən sıxışdırıldı[35]

İslam-demokratiya müzakirələrində üç əsas yanaşma var[36]. Bu yanaşmalar "İslam demokratiyaya uyğundur", "İslam demokratiyaya sığmır" və "İslam demokratiya tələb edir". Başqa bir təsnifata görə, islamçıların demokratiyaya yanaşmasında üç əsas yanaşma var: imanı inkar edənlər, metodu rədd edənlər və onu qəbul edənlər[37]. Ümumiyyətlə, bu təsnifatları iki əsas yanaşmaya ixtisar etmək olar: "İslam demokratiyaya uyğundur" və "İslam demokratiyaya uyğun gəlmir". Məsələnin tərəflərinə baxdıqda, onlardan heç birinin iddialarını tam sübuta yetirmək mümkün görünmür. İslamın demokratiyaya uyğun olub-olmaması ilə bağlı müzakirələr və səbəblər müxtəlif olsa da, həm müsəlmanlar arasında, həm də Qərb dünyasında bu anlayışın nümayəndələrinə rast gəlmək mümkündür.

---

[34] Hüseyin, A. Batının İslamla Kavgası / - İstanbul: Pınar Yayınları, -2017. -s.121.
[35] Allahverdiyeva, F.M. Modernləşməyə reaksiya olaraq siyasi İslamın təşəkkülü / – Bakı: Tarix və onun problemləri. – 2022. №4, – s.92.
[36] Koyuncu, A.A. Dört Farklı Perspektiften İslam Demokrasi Tartışmaları // İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi, - İstanbul: - 2015, 4 (3), - s. 710.
[37] Çapık, K. Sevimsiz Kavram, Demokrasi / Umran Dergisi, -İstanbul: - 2014, №240, -s.58.

İslamın demokratiyaya uyğun olmadığını düşünənləri iki kateqoriyaya ayırmaq olar. Birinci kateqoriyaya görə, demokratiya şirk rejimdir və demokratiyanın qəbulu insanı imandan çıxarır. İkinci kateqoriyaya görə, şirk olmasa belə, demokratiyadan metodik istifadə edilməməlidir[38].

İran İslam İnqilabından sonra İslam dünyasında mövcud olan düşüncələri izah etmək üçün fundamentalizm anlayışından istifadə olunmağa başlandı. Modernləşməyə qarşı olan İslam fundamentalizmi İslamı ilkin formasına gətirmək cəhdi kimi istifadə olunur. İslam ölkələrində yaşanan sosial-iqtisadi böhranlar nəticəsində xalqın bir-birinə qarışması, kollektiv fəaliyyət şüuru, XIX və XX əsrlərdə beynəlxalq aləmdə baş verən dəyişikliklər nəticəsində müxtəlif ideologiyaların meydana çıxması, modernləşmə, hakimiyyətə qarşı üsyanlar, urbanizasiya Radikal İslamın yaranmasında əsas amillərdən sayılır[39].

**“Avropanın aparıcı dövlətlərinin Yaxın Şərq siyasətində İslam amilinə Ərəb baharının təsiri”** adlanan ikinci yarımfəsildə Almaniyanın, Fransanın, İngiltərənin və İtaliyanın Ərəb baharı hadisələrinə institusional yanaşması, İslam amilindən istifadə etməklə Ərəb baharı perspektivləri təhlil olunmuşdur.

Yaxın Şərqdə və Ərəb dünyasında demokratiyanın olmaması, Qərb üçün təhlükəsizliyə təhdid yaradırdı. Bir çox Avropa ölkələri demokratikləşmə səylərinə haqq qazandırsa da, dünyada artan planlı və mütəşəkkil terror hadisələrində müsəlmanların diqqət mərkəzində saxlanılması, müsəlmanları potensial terrorçu kimi göstərirdi. Bu cür təbliğat işi sayəsində, cəmiyyətdə ksenofobiya hakim oldu. Avropaya köç edən müsəlman mühacirlərin, illər keçdikcə qonaq işçi statusunda qalmaq istəməməsi, Avropa insan haqqlarına uyğun formada vətəndaşlıq statusundan faydalanmaq istəməsi, bu iki fərqli cəmiyyətin nümayəndələrini üz-üzə qoydu. Özlərini yaşadıqları ölkənin fərdləri kimi görmək və hüquqlarının qorunmasını tələb etməsi, qərbdə müsəlman probleminin varlığını gündəmə gətirdi. Məhz bu məqamda, müsəl-

---

[38] Yenə orada – s.59.

[39] Manaz, A. Siyasal İslamcılık: Dünyada Siyasal İslamcılık / - İstanbul: IQ Kültür Sanat Yayıncılık. – 2008, – s. 98-112.

manlarla bir yerdə yaşamaq məcburiyyəti, avropalıların böyük bir hissəsi üçün narahatlığa çevrildi. Bu narahatlıq terror hadisələri ilə gücləndərək, yerini İslam qorxusuna buraxdı[40].

İslamdan qorxmaq mənasına gələn İslamofobiya anlayışı, ilk dəfə 1991-ci ildə işlənmiş, 2011-ci il, 11 sentyabr terror hücumlarından sonra yenidən gündəmə gəlmişdir. Bu gün islamofobiya deyildikdə, İslam dinini öyrənmədən, müsəlmanlar və İslam haqqında ümumi məlumatsızlıqdan yaranan qorxuya əsaslanaraq, müsəlmanlara qarşı düşmənçilik və ayrı-seçkiliyin qanuni olduğu başa düşülür[41].

Almaniyanın Yaxın Şərqlə bağlı siyasəti təhlükəsizlik, siyasi və iqtisadi maraqlar ətrafında formalaşmışdır. Təhlükəsizlik baxımından narahatlığı, Avropanın regionla coğrafi yaxınlığı səbəbindən, qeyri-qanuni kütləvi immiqrantların Avropaya axın etməsiydi. Digər tərəfdən, regional münaqişələrdən irəli gələn potensial risklər, terrorizm, kütləvi qırğın silahlarının yayılması da narahatlıq yaradır. Siyasi olaraq, Ərəb və İsrail cəbhəsində sakitlikdən tərəf olmasıdır. Almaniyanın iqtisadi narahatlığı isə, regional bazarlara problemsiz enerji ixracını həyata keçirmək və enerji resurslarına maneəsiz kontakt yaratmaq istəyindən irəli gəlirdi[42].

Britaniyalı yazıçı Karen Armstronqun fikrincə, "İslamofobiya" səlibçilərdən bəri davam edən tarixi bir hadisədir. 11 sentyabr İslamın ruhunu əks etdirmir. Problem dinlərdə deyil, siyasətçilərdədir [43]. 11 sentyabr hadisəsindən sonra, xüsusən də Ərəb baharı prosesi ilə birlikdə Fransada İslamofobiya artmaqda idi. Sarkozi administrasiyasında həm anti-immiqrant, həm də anti-İslam meylləri artarkən, Ərəb baharı prosesi səbəbindən, müsəlmanlara qarşı təqib və hücumlar yarandı. 10 noyabr, 2012-ci il tarixində Paris küçələrində keçirilən kütləvi nümayişdə "*Elzas-Lotaringiyanın islamlaşmasına yox!*", "*İslam Luvrdan*

---

[40] Allahverdiyeva, F.M. Ərəb baharı fonunda Avropada İslamafobiyanın təşəkkülü / - Naxçıvan: Elmi Əsərlər– 2023. №1, – s.203.

[41] Özer, A. 11 Eylül, Bölünen Dünya, Hantington Ve Çatışma / Toplum Ve Demokrasi, - İstanbul: - 2009, 3(5), - s.191-210.

[42] Kazleh, M.A. Determinants of German Foreign Policy toward the Arab-Israeli Conflict // - Uluslararası Hukuk ve Politika, - Ankara: - 2008, 4(13), - p. 120-121..

[43] Keukeleire, S., Delreux, T., The Foreign Policy of the European Union (The European Union Series, 134) / - New York: Springer Publication, -2014, - p. 220.

*çıx!*” kimi şüarlar səsləndirilərkən, bu məqsədlə "*İslamçı faşizmi*" qınayan sağ qruplar nümayişə böyük maraq göstərdi[44].

İslam və müsəlmanlar, İtaliya siyasəti üçün problemli məsələ olmasa da, 11 sentyabr hadisəsinin nəticələri və Ərəb baharı ilə, siyasətçilərin müsəlmanların gündəlik həyatına və ibadətlərinə getdikcə daha çox qarışmasına səbəb oldu. İtaliya dövlətinin nümayiş etdirdiyi təhlükəsizlik və terrorla mübarizə yönümlü siyasətdə, İslamla bağlı proseslərə cəlb edən qanunlar qəbul etməsinə mane olur. 2005-2017-ci illərdə, təhlükəsizlik məsələləri və terrorizmlə mübarizə əsasında formalaşan siyasət, müsəlmanlara normal vətəndaşlar və potensial tərəfdaşlar kimi deyil, daxili düşmənlər kimi yanaşırdı. Lakin, 2017-ci ilin yanvarında, Daxili İşlər Naziri A.Alfano “ölkəyə müsəlmanların inteqrasiyasını yaxşılaşdırmaq” missiyası daşıyan, başqa bir məsləhət orqanı olan yeni “İtalyan İslamı ilə Əlaqələr Şurasının” yaradıldığını elan etdi və bildirdi ki, şuranın məqsədi müsəlman mühacirlərin, İtaliya cəmiyyətinə daha çox inteqrasiyasını təmin etmək, ekstremizmin qarşısını almaq, imamların hazırlanması, yeni məscidlərin inşasına razılıq verməkdir. İslam mədəniyyəti sahəsində akademik və ekspertlərdən ibarət Şura, hər ay inteqrasiya məsələləri ilə bağlı tövsiyələr təqdim etməlidir[45].

Yarımfəsildə gəlinən nəticə o olmuşdur ki, Avropa dövlətləri tarix boyunca istər daxili istər xarici siyasətdə, İslamdan öz məqsədləri üçün istifadə etmişlər. Yaxın Şərqə yönəlik münasibətdə əsas düşmənçilik vasitəsi olaraq din amilindən istifadəni, baş verən terror hücumlarına qarşı mühakimələri gücləndirərək, İslam əleyhinə səsləri artırması da, bu yanaşmanın doğruluğunu bir daha sübut etir. Yaxın Şərq və Avropanın xarici siyasətini, habelə bütövlükdə İslam dini və onun Ərəb baharı çərçivəsində beynəlxalq problemə çevrilməsinə səbəb olan amilləri izləmək imkanı yaradır.

---

[44] Menegaux, C. Guéant: La Hausse du Nombre de Musulmans Pose Probléme: [Ressource électronique] / Le Figaro, - 4 Avril, 2011. URL: https://www.lefigaro.fr/politique/2011/04/04/01002-20110404ARTFIG00660-gueant-la-hausse-du-nombre-de-musulmans-pose-probleme.php

[45] Faytre, L. İtalya İslam’a bir güvenlik sorunu olarak yaklaşıyor: [Elektronik kaynak] / Analiz: -Mayıs 5, 2022. URL: https://www.aa.com.tr/tr/analiz-haber/italya-islam-a-bir-guvenlik-sorunu-olarak-yaklasiyor/1280721

**Nəticə** hissəsində, tədqiqatın qarşısında qoyulmuş vəzifələrlə bağlı aşağıdakı nəticələrə gəlinmişdir:

1. Dövlət idarəçiliyində və daxili siyasətdə mühüm faktor olan İslam, xüsusilə 2001-ci il 11 sentyabr terror hücumlarından sonra, təkcə din olaraq deyil, həm də siyasi ideologiya olaraq beynəlxalq gündəmin mərkəzindədir.

2. Ərəb baharını şərtləndirən amilləri nəzərdən keçirərkən, prosesə daxili amillərlə yanaşı xarici amillərin də təsiri aydın şəkildə göstərdi ki, Yaxın Şərqdə baş verən hər növ siyasi dəyişiklik Qərbin növbəti oyunudur.

3. Ərəb baharı hadisələri nəticəsində, dinin siyasətə inteqrasiyası ilə yanaşı, qərbə doğru kütləvi miqrasiya hərəkətlərinin artması da öz növbəsində Avropa ilə münasibətlərdə Yaxın Şərqin siyasi həyatına əhəmiyyətli dərəcədə təsir göstərdi. Ərəb baharı hadisələri və bölgədə yeni terror qruplarının yaranması, Qərb mediasında hadisələri şərh edərkən İslamafobik ifadələrin istifadəsini mümkünsüz edir. Qərbi Avropada İslam dininin geniş yayılması və müsəlman kimlik problemləri ilə bağlı aparılan sosioloji tədqiqatların mərkəzində duran əsas məsələ "İslamafobiya", yəni İslam düşmənçiliyidir.

4. Qərbdə formalaşan demokratiya və vətəndaş cəmiyyəti anlayışlarının, İslam dininin mahiyyəti ilə uyğunluğu, İslamda yeri olub-olmamasına dair müzakirələr, İslam və müasir həyatın bir yerdə davam edə biləcəyi fikrini təlqin etmək üçün, təşkilatlanmanın zəruri olduğunu göstərdi.

5. Yaxın Şərqdə müsəlman cəmiyyətlərin demokratiya uğrunda başlatdığı inqilab dalğası, Almaniyanın regionla bağlı siyasətini təhlükəsizlik, iqtisadi və siyasi maraqlar çərçivəsində yenidən formalaşdırmasına səbəb oldu. Almaniyada İslamafobiyanın təşəkkül prosesi və müsəlmanlar iş üzrə bir çox siyasi və sosial addımlar atıldı. Ərəb baharı hadisələrinin nəticələrinin Almaniyaya sıçramasının və müsəlman mühacirlərin sayının atmasının ardından, siyasətçilərin öz mövqelərinə görə İslamın Almaniyanın bir hissəsi olub-olmaması ilə bağlı ziddiyyətli bəyanatları, əslində, onların heç zaman İslamı və müsəlmanları Almaniyanın bir hissəsi olaraq görmək istəməmələrindən

qaynaqlanır. Beləliklə, onlar öz siyasi qabiliyyətlərinə inam hissi qazanarkən, alman xalqının İslam və müsəlmanlarla bağlı qorxuları güclənir.

6. XX əsrin sonlarından etibarən Fransada daxili siyasətin əsas müzakirə mövzusuna çevrilmiş Fransa İslamı məsələsi, xüsusilə Ərəb baharı hadisələrindən sonra, Fransız İslam layihəsi, İslamın yenidən nəzərdən keçirilməsi və ya milliləşdirilməsi ideyasına əsaslanaraq, müasir, milli İslam modeli yaratmağı hədəfləyir. Ərəb baharı hadisələrinin yeniliyi və Fransanın hakim olduğu coğrafiyalarda islamçı qrupların siyasi arenada aktiv olması, Fransa siyasətində anti-İslam müzakirələrinin aktual olaraq qalacağını göstərir.

7. "Böyük Yaxın Şərq layihəsi"nin davamı və ya bir parçası olaraq qəbul edilən Ərəb baharı hadisələri nəticəsində yaranan Avropa İslam anlayışı, Avropada yaşayan müsəlmanların həyatını asanlaşdırmaq, gündəlik həyatda rast gəlinən islamafobik hərəkətləri azaltmaq, Avropada yaşayan müsəlmanlara qarşı öz kimliklərini qorumaq üçün həyata keçirilən əməliyyat kimi göstərilir.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı məqalələr, tezislər və konfrans materialı nəşr olunmuşdur:**

**1.** Ərəb Baharının kölgəsində müsəlman cəmiyyətlərin iqtidar sınağı // – Bakı: Tarix və onun problemləri, – 2019. − № 3, − s. 314-318.
**2.** The İmpact of Arab spring to Political İslam // – Kyiv: Гілея: науковий вісник. – К. : «Видавництво «Гілея», 2020. – Вип. 159 (№ 11-12). − Ч. 1. Історичні науки, − с. 21-25.
**3.** Modernləşməyə reaksiya olaraq siyasi İslamın təşəkkülü // – Bakı: Tarix və onun problemləri, – 2022. − № 4, − s. 92-96.
**4.** Fransanın oryantalist İslam anlayışı: Fransız İslam düşüncəsinin təşəkkülü // – Gəncə: AMEA Gəncə Bölməsi, Xəbərlər Məcmuəsi, "İctimai və humanitar elmlər" seriyası, -2023, №1, - s. 105-110.
**5.** Alman İslam anlayışının nəzəri-tarixi aspektləri // – Bakı: Bakı Universitetinin Xəbərləri Humanitar elmlər seriyası, – 2023. − № 1, − s. 153 – 164.

**6.** Ərəb Baharı Fonunda Avropada İslamafobiyanın Təşəkkülü // – Naxçıvan: Naxçıvan Universiteti Elmi əsərlər, – 2023. №1, – s. 202-209.
**7.** Ərəb Baharı illərində İngiltərənin Liviya siyasəti // Davamlı İnkişaf və Humanitar elmlərin aktual problemləri. Respublika konfransının materialları – Bakı: 2019. – s. 14-16.
**8.** Ərəb Baharının qadın haqqlarına təsiri // İnternational Conference on Gender Problems & Modern Azerbaijan, – Baku: 2019. − p. 17-20.
**9.** Ərəb Baharının başlanmasında dini hərəkatların rolu // İnternational Euroasia Congress on Scientific Researches and Recent Trends-VII, – Baku: 2020. Vol.3, − s. 1-7.
**10.** The Role of the demographic situation in the Arab countries in the beginning of the Arab spring // 5. International Paris Conference on Social Sciences Proceedings book, – Paris: 2021. − s. 603-608.
**11.** Regional təhlükəsizlik kontekstində: Yaxın Şərqdə din və demokratiya münasibətləri // "Beynəlxalq Münasibətlərin Aktual Problemləri" adlı Respublika elmi konfransı Məruzələrin tezisləri, - Bakı: 2019. – s. 174-177.
**12.** Avrupa ülkelerinin Arap Baharı yaklaşımı // İnternational Euroasıa Congress on Scientific Researches and Recent Trends-V, - Baku: 2019. – s. 36-38.
**13.** Ərəb Baharının başlanmasında dini hərəkatların rolu // Euroasıa Congress on Scientific Researches and Recent Trends-VII, - Baku, 2020, - s. 606-607.

Dissertasiyanın müdafiəsi 12 iyun 2024-cü il tarixində saat 10:00 Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1148, Bakı şəh., Yasamal r/nu, Zahid Xəlilov küç., 23

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın electron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 3 may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.04.2024
Kağızın format: A5
Həcm: 44.982
Tiraj: 100